

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 60 (21.470)

*5 aprel 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik

*Rəsmi xronika*

Aprelin 2-də Azərbaycan Respublikası Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib.

Dövlətimizin başçısı iclasda çıxış edib.

Sonra müdafiə naziri Zakir Həsənov məruzə edib.

Bildirilib ki, aprelin 1-dən 2-nə keçən gecə erməni silahlı qüvvələri müxtəlif istiqamətlərdən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücuma keçmiş və yaşayış məntəqələrimizi atəşə tutmuşlar. Bu təxribat xarakterli hücumların nəticəsində hərbi qulluqçularımız qəhrəmancasına həlak olmuşlar. Cavab olaraq Azərbaycan Silahlı Qüvvələri bütün istiqamətlərdən əks hücuma keçərək düşmənin mövqelərinə sarsıdıcı zərbələr vurmuşlar. Bütün əməliyyat şəraiti nəzərə alınmaqla, Silahlı Qüvvələrimiz tədbirləri davam etdirir, cəbhəboyu əməliyyat şəraitini tam nəzarət altında saxlayır və gözlənilən bütün təxribatların qarşısını almağa hazırdır.

Prezident İlham Əliyev deyib ki, aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır. Azərbaycan Ordusunu, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini bu böyük qələbə münasibətilə təbrik edirəm.



## “Əlincəqala” tarixi abidəsi bərpa olunub








Naxçıvan tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri, dünya əhəmiyyətli tarixi abidələr, qədim yaşayış yerləri, qala və istehkamlarla zəngindir. Tarixən bu ərazidə yaşamış Azərbaycan türklərinin yaratdığı bu qədim tarixi-mədəni irsin qorunub saxlanması istiqamətində ardıcıl tədbirlər görülür, tarixi abidələr bərpa olunaraq keçmişdən bu günə körpü salınır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən “Əlincəqala” tarixi abidəsinin bərpa olunması da bu sahədə görülən işlərin davamıdır.

Aprelin 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Əlincəqalaya gəlmiş, burada görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, bərpa işləri zamanı Əlincə dağının ətəyində müvafiq yer seçilmiş və “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi üçün bina inşa olunmuşdur. Bina iş otaqları və ekspozisiya zalından ibarətdir. Ekspozisiya zalında Əlincəqalada məskunlaşan insanların həyat tərzini özündə əks etdirən maddi-mədəniyyət nümunələrinin, xüsusilə qədim məişət əşyalarının, pul və sikkələrin, kitab, jurnal və qəzet materiallarının nümayiş etdirilməsi üçün vitrinlər qoyulmuşdur. Bu da ziyarətçilərin qala sakinlərinin yaşayışı və qəhrəmanlıq tarixi haqqında ətraflı məlumat almasına imkan verəcəkdir.

“Əlincəqala” tarixi abidəsindəki qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunmuşdur. Qala divarları və bürclər əzəmətli görkəmi ilə Naxçıvan memarlıq məktəbinin qədim izlərini özündə yaşadır. Bərpa işləri zamanı qalanın zirvəsinə doğru yol çəkilmiş, qala ərazisində, eləcə də yol boyunca işıqlandırma sistemləri quraşdırılmış, oturacaqlar qoyulmuş və ətrafda yaşıllıqlar salınmışdır.

Tarixi yaşadanları tarix də yaşadacaqdır. “Əlincəqala” tarixi abidəsinin bərpa olunması da xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və bütün dünyada tanıdılması baxımından mühüm əhəmiyyət daşıyır. Qədim tariximizdən soraq verən, Naxçıvanın əyilməzlik və mübarizlik rəmzi olan “Əlincəqala” abidəsi möhtəşəm görkəmi ilə turistlərin ciddi marağına səbəb olacaqdır.

Ali Məclisin Sədri “Əlincəqala” abidəsində aparılan bərpa işlərinin əhəmiyyətini qeyd etmiş, “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin qalanın tarixi dövrlərinə aid eksponatlarla zənginləşdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərini təkmilləşdirmək, torpaqların elektron uçotunu aparmaq, torpaqların faktiki istifadə vəziyyəti ilə hüquqları təsdiq edən sənədlərdə olan uyğunsuzluqların aradan qaldırılmasına nail olmaq, torpaqlardan daha səmərəli istifadəni təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinə tapşırılsın:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq, dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılmasını və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsini bu Fərmanın 6.1-ci bəndində nəzərdə tutulmuş Tədbirlər Planına müvafiq olaraq 2020-ci ilədək təmin etsin;

2.2. dövlət orqanları tərəfindən aparılan sahəvi dövlət kadastrlarında torpaqlarla bağlı mövcud məlumatların, habelə aidiyyəti dövlət orqanları tərəfindən torpaqların münbitliyinin bərpası və artırılması istiqamətində həyata keçirilən tədbirlərin, torpaqlardan istifadənin vəziyyətinin müəyyən olunması məqsədi ilə aparılan monitorinqlərin nəticələri barədə məlumatların torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilməsini təmin etsin;

2.3. torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi zamanı fiziki və hüquqi şəxslərin mülkiyyətindəki və qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların yerləşdiyi torpaqlarda və torpaq islahatı zamanı verilmiş pay torpaqlarında hüquqi və texniki sənədlərdəki məkan göstəriciləri ilə torpaqlardan faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasında mövcud olan uyğunsuzluqların (sərhəd, yerləşmə və konfiqurasiya fərqlərinin) Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 43-cü maddəsinə uyğun olaraq yerquruluşu qaydasında aradan qaldırılmasını aşağıdakı tələblərə riayət etməklə həyata keçirsin:

2.3.1. torpaqlardan istifadədə mövcud uyğunsuzluqların şəhər, qəsəbə və kənd ərazi vahidləri üzrə torpaq sahələrinin dəqiqləşdirilməsi və qaydaya salınması layihələri (bundan sonra – ərazi vahidləri üzrə layihələr) əsasında aradan qaldırılması;

2.3.2. torpaqların istifadəsində mövcud uyğunsuzluqların aradan qaldırılmasının torpaq sahələri üzərində hüquqları təsdiq edən sənədlərdə göstərilən sahə ölçüsü saxlanılmaqla

*Ardı 2-ci səhifədə*

aparılması, torpaq sahəsinin faktiki ölçüləri hüquq müəyyənedici sənəddə göstərilən ölçülərdən az olduqda isə yeni hüquq müəyyənedici sənədlərdə torpaq sahəsinin faktiki ölçülərinin göstərilməsinə mülkiyyətçinin, istifadəçinin, icarəçinin yazılı razılığı əsasında yol verilməsi;

2.3.3. torpaq sahəsinin faktiki ölçüləri hüquq müəyyənedici sənəddə göstərilən ölçülərdən artıq olduqda, torpaqların elektron kadastr uçotu informasiya sistemində zəbt olunmuş sahənin mülkiyyət növü və ölçüləri barədə məlumatın göstərilməsi;

2.3.4. ərazi vahidləri üzrə layihələrin həmin ərazidə hüquqlarına toxunulan torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə razılaşdırılması;

2.3.5. ərazi vahidləri üzrə layihələrin torpaqla bağlı normativ hüquqi aktların tələblərinə zidd olmadığı və digər şəxslərin hüquqlarının pozulmadığı hallarda, torpaqların faktiki istifadə vəziyyəti əsas götürülməklə tərtib edilməsi;

2.4. torpaqların elektron kadastr uçotu informasiya sisteminə ərazi vahidləri üzrə layihələr əsasında torpaq sahələri barədə dürüstləşdirilmiş məlumatların daxil edilməsini təmin etsin;

2.5. ərazi vahidləri üzrə layihələrin nəticəsi olan və torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilmiş torpaq sahələrinə dair məlumatlar əsasında daşınmaz əmlakın dövlət reyestrində üzərində hüquqlar qeydiyyata alınmış torpaq sahələrinə dair hüquqi və texniki sənədlərdə düzəlişlər edilməsi zərurəti barədə hüquq sahiblərinə bildiriş təqdim olunmasını, habelə “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 16-cı maddəsi ilə müəyyən edilmiş qaydada hüquq sahibi olan mülkiyyətçilərin, istifadəçilərin və icarəçilərin ərizəsi əsasında daşınmaz əmlakın dövlət reyestrində düzəlişlər edilməsini və həmin düzəlişlərə uyğun yeni sənədlərin verilməsini təmin etsin;

2.6. torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi zamanı aşkar edilən, yaşayış məntəqələrinin torpaqlarına aid olmayan torpaqlarda salınmış yaşayış massivlərinin, eləcə də əhalinin məskunlaşdığı ərazi hissələrinin yerləşdiyi torpaq sahələrinin kateqoriyalarının dəyişdirilməsi, habelə torpaqların dövlət torpaq kadastrında aid edildiyi kateqoriya ilə yanaşı digər kateqoriyaya da aid edilməsi barədə təkliflərin, Azərbaycan Respublikası Torpaq Məcəlləsinin tələblərinə zidd olmadığı təqdirdə, əsaslandırılmaqla və aidiyyəti orqanlarla razılaşdırılmaqla Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim olunmasını təmin etsin;

2.7. torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılmasının və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsinin ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması, eləcə də bələdiyyələrin xəritələrinin hazırlanması tədbirləri ilə əlaqələndirilməklə həyata keçirilməsini və dövlət büdcəsi vəsaitindən səmərəli istifadə olunmasını təmin etsin;

2.8. torpaqdan istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti tədbirlərinin gücləndirilməsini, aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsini təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət müəssisə və təşkilatlarına tapşırılsın:

3.1. idarəçiliyini həyata keçirdikləri, habelə istifadələrində olan torpaq sahələrinin yerquruluşu qaydasında mərzçəkmə işləri aparılmaqla sərhədlərinin dəqiqləşdirilməsi üçün müvafiq sənədlərin və məlumatların Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin (bundan sonra – Komitə) sorğusu əsasında ona təqdim olunmasını, habelə zəruri hallarda bu işlərdə öz nümayəndələrinin iştirakını təmin etsinlər;

3.2. avtomobil və dəmir yolları, magistral suvarma kanalları və kollektorlar, su, kanalizasiya, elektrik və rabitə xətləri, magistral qaz kəmərləri, mədəni irs obyektləri və qoruqlar, eləcə də qorunan və mühafizə olunan digər qurğu və obyektlərin mühafizə, sanitariya, qorunma və digər zona və zolaqları barədə mövcud məlumatların Komitəyə təqdim olunmasını, bu məlumatlar olmadıqda isə Komitənin sorğusu əsasında həmin zona və zolaqların müəyyən edilməsi məqsədi ilə aparılan işlərdə iştirak etmək üçün öz nümayəndələrinin ayrılmasını təmin etsinlər.

4. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılsın ki, idarəçiliyini həyata keçirdikləri, habelə istifadələrində olan torpaq sahələri, eləcə də apardıqları sahəvi kadastrlardakı torpaqlarla bağlı, torpaqların münbitliyinin bərpası və artırılması, onlardan istifadə olunması, bu məqsədlərlə aparılan monitorinqlərin nəticələri ilə bağlı sənədlərin və məlumatların, həmin torpaq sahələrinə münasibətdə həyata keçirdikləri tədbirlər və bu tədbirlər nəticəsində əldə olunan, informasiya sisteminə daxil edilməli məlumatların Komitəyə təqdim olunmasını təmin etsinlər.

5. Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanlarına tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki, Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması ilə əlaqədar torpaq və digər daşınmaz əmlak mülkiyyətçilərinə, icarəçilərinə və istifadəçilərinə görülən işlərin mahiyyəti və nəticələrinin izahı ilə bağlı Komitə tərəfindən müvafiq ərazidə maarifləndirmə tədbirlərinin keçirilməsində iştirak etsinlər və bununla bağlı təşkilati dəstəyi təmin etsinlər.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

6.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq, dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılmasının və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsinin 2020-ci ilədək mərhələlərlə təmin olunmasına dair Tədbirlər Planını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə razılaşdırmaqla təsdiq etsin;

6.2. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin təklifləri əsasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması, bu məqsədlə yerquruluşu, geodeziya işlərinin və torpaq, geobotaniki və aqrokimyəvi tədqiqatların mərhələlərlə aparılmasının maliyyələşdirilməsi məsələlərini həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 aprel 2016-cı il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması

# QAYDALARI

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunu aparmaq məqsədi ilə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması mexanizmini müəyyən edir.

1.2. Torpaqların elektron kadastr uçotu informasiya sisteminin (bundan sonra – sistem) yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi bu Qaydalara uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilir.

1.3. Sistemin yaradılmasında və rəqəmsal kadastr xəritəsinin tərtibində məqsəd – torpaqlardan səmərəli istifadənin təmin edilməsi üçün mülkiyyət növündən və təyinatından asılı olmayaraq bütün torpaq sahələrinin həndəsi ölçülərini, sərhədlərini, konfiqurasiyasını, kənd təsərrüfatı yerlərində (uqodiyaları), torpaqların kəmiyyət və keyfiyyət göstəricilərində baş verən dəyişiklikləri düzgün müəyyənləşdirmək və sistemdə əks etdirmək, torpaqlardan məqsədli təyinatına və hüquqi rejiminə uyğun istifadəyə və onların mühafizəsinə nəzarət etmək, torpaqların münbitliyinin bərpası və artırılması istiqamətində görülən tədbirlərin səmərəliliyinə zəmin yaratmaq, torpaq ehtiyatlarının mülkiyyət növləri üzrə kəmiyyət göstəricilərini müəyyənləşdirmək, dəqiq məlumatlar əsasında torpaq balansını tərtib etməkdir.

1.4. Sistemin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi işləri aşağıdakı ardıcıllıqla həyata keçirilir:

1.4.1. hazırlıq işləri;

1.4.2. çöl tədqiqatı, vektorlaşdırılmış xəritə materiallarının naturada təsbiti və çöl geodeziya ölçmə işlərinin aparılması;

1.4.3. çöl və kameral şəraitdə aparılmış ölçmə işlərinin nəticələrinin və toplanmış kadastr məlumatlarının keyfiyyətinə nəzarət;

1.4.4. torpaq sahələrinə dair sənədlərdəki məkan göstəriciləri ilə torpağın faktiki yerləşdiyi məkan göstəriciləri arasındakı uyğunsuzluqların müəyyənləşdirilməsi və aradan qaldırılması ilə bağlı ərazi vahidləri üzrə layihələrin işlənməsi;

1.4.5. torpaqlarla bağlı dövlət registr və kadastrlarında saxlanılan, bu Qaydaların 1.4.1-1.4.4-cü bəndlərində nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi nəticəsində əldə edilmiş məlumatları sistemə daxil etməklə onun formalaşdırılması, habelə torpaqların kəmiyyət və keyfiyyət göstəricilərində dəyişikliklər baş verdikdə, torpaqların keyfiyyət göstəricilərində dəyişikliklərlə nəticələnən tədbirlər, torpaqlardan istifadənin vəziyyətinin müəyyən olunması məqsədi ilə aparılan monitorinqlərin nəticələri barədə məlumatların sistemə daxil edilməsi və rəqəmsal kadastr xəritəsinin tərtibi.

**2. Hazırlıq işləri**

2.1. Hazırlıq işləri kameral və çöl hazırlıq işlərini əhatə edir.

2.2. Kameral hazırlıq işləri zamanı aşağıdakı plan-kartoqrafik materialların və uçot məlumatlarının toplanması, sistemləşdirilməsi, təhlili aparılır və onlar çöl işlərinin icrası zamanı istifadə üçün hazırlanır:

2.2.1. ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin sərhədlərini əks etdirən mövcud xəritələr, müxtəlif miqyaslı plan-kartoqrafik materiallar;

2.2.2. bələdiyyələrin xəritələri;

2.2.3. keçmiş sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin özəlləşdiriləcək torpaqlarının baş sxemləri, kompleks yerquruluşu layihələri, torpaqlardan pay almış ailələrin siyahısı, pay torpaqlarının sahəsi barədə məlumatlar və verilmiş sənədlərin rekvizitləri;

2.2.4. keçmiş sovxoz, kolxoz və digər kənd təsərrüfatı müəssisələrinin özəlləşdiriləcək torpaqlarının kompleks yerquruluşu layihələrində və torpaqlardan pay almaq hüququ olan subyektlərin siyahısında sonradan əlavə və dəyişikliklər edilməsi barədə aqrar islahat komissiyalarının qərarları və qanuni qüvvəyə minmiş məhkəmə qərarları;

2.2.5. torpaqların texniki uçotunun nəticələrinə dair əvvəlki illərə aid hesabatlar və yerquruluşu planları;

2.2.6. mülkiyyətdə, istifadədə və icarədə olan torpaq sahələri və onların üzərində mövcud olan daşınmaz əmlak haqqında daşınmaz əmlakın dövlət reyestrində, yerli icra hakimiyyəti başçılarının kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri tərəfindən aparılan təsərrüfatbaşına kitablarda saxlanılan məlumatlar.

2.3. Rəqəmsal kadastr xəritəsinin formalaşdırılması məqsədi ilə ilkin olaraq bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulmuş sənədlərdən (məlumat bazasından) fotoqrammetrik üsulla vektorlaşdırılmış rəqəmsal kadastr xəritə materiallarının üzərinə aşağıdakı məlumatlar köçürülür:

2.3.1. ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin, bələdiyyələrin, yaşayış məntəqələrinin sərhədləri;

2.3.2. kənd təsərrüfatı yerləri (uqodiyaları) haqqında məlumatlar, torpaq islahatına cəlb olunmuş kənd təsərrüfatı yerlərinin (uqodiyalarının) sərhədləri;

2.3.3. kommunikasiya xətləri (avtomobil və dəmir yolları, magistral suvarma kanalları və kollektorlar, körpülər, tunellər, su, kanalizasiya, elektrik və rabitə xətləri, magistral qaz kəmərləri) haqqında məlumatlar;

2.3.4. su obyektləri, meliorasiya və suvarma sistemləri barədə məlumatlar;

2.3.5. torpaqların meliorativ vəziyyəti (suvarılan və dəmyə) haqqında məlumatlar;

2.3.6. meşə və kolluqlar haqqında məlumatlar;

2.3.7. mövcud təbii relyef elementləri, habelə karxanalar, radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış ərazilər haqqında məlumatlar;

2.3.8. qeyri-kənd təsərrüfatı təyinatlı torpaqlar haqqında məlumatlar.

2.4. Çöl hazırlıq işləri mərhələsində müvafiq rayon, şəhər inzibati ərazi vahidinin ərazisinə baxış keçirilir, ərazinin landşaft xüsusiyyətləri öyrənilir, bələdiyyələr, yerli icra hakimiyyəti orqanlarının nümayəndələri, habelə torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə görüşlər keçirilir, torpaqların həndəsi ölçüləri, sərhədləri, konfiqurasiyası ilə bağlı problemlər öyrənilir.

**3. Çöl tədqiqatı, vektorlaşdırılmış xəritə materiallarının naturada təsbiti, çöl geodeziya ölçmə və torpaq tədqiqatı işlərinin aparılması**

3.1. Bu mərhələdə vektorlaşdırılmış xəritə materialları elektron informasiya vasitələrinə yüklənir və xəritə üzərində ərazinin sərhədləri daxilində mövcud olan bütün torpaq sahələri barədə kadastr uçotu məlumatları toplanır.

3.2. Xəritələrin üzərində şəhər, qəsəbə və kənd ərazi vahidlərinin, bələdiyyələrin sərhədlərinin elektron geodeziya ölçmə alətləri vasitəsilə dövlət geodeziya şəbəkəsinin yerüstü nəzarət nöqtələrinə bağlanmaqla dürüstləşdirilməsi işləri aparılır. Bu zaman sərhəd xəttində mərz nişanlarının mövcudluğu, onların müvafiq sənədlərdə göstərilən koordinatlara uyğun qoyulduğu (basdırıldığı) yoxlanılır və sərhəd xətti boyunca itmiş mərz nişanlarının yerləri müəyyən edilir.

3.3. Xəritə üzərində, ərazi vahidlərinin sərhədləri daxilində, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 218 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması Qaydası”nda nəzərdə tutulmuş məlumatlar, habelə mövcud olan küçələr, meydanlar, dalanlar, keçidlər, həyətyanı torpaq sahələrinin sərhədləri, qəsəbə və kənd ərazi vahidinin inkişaf torpaqları, müvafiq bələdiyyələrin ehtiyat fondu torpaqları, bina və tikililərin yerləşdiyi torpaq sahələri, topoqrafik elementlər (parklar, kolluqlar, meşə zolaqları), mühəndis kommunikasiya xətləri və qurğuları, hidroqrafiya elementləri (çaylar, göllər, arxlar, sututarlar) və kənd təsərrüfatı yerlərinin (uqodiyalarının) (suvarılan torpaq sahələri göstərilməklə) sərhədləri, meşə ilə örtülü sahələr, ağaclar, tarlaqoruyucu, suqoruyucu meşə zolaqları, qeyri-kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin konturları çöl geodeziya ölçmə işləri aparılmaqla müəyyən olunur.

3.4. Çöl geodeziya ölçmə işləri zamanı hər bir torpaq sahəsi, onların yeni çəkilmiş ölçüləri barəsində məlumatlar sistemə daxil edilir.

3.5. Torpaqların keyfiyyət göstəricilərini xarakterizə edən məlumatlar qanunvericiliklə müəyyənləşdirilmiş müddətlərdə və qaydada aparılan tədqiqatların nəticələrinə uyğun sistemə daxil edilir, yenilənir və aktuallığı təmin edilir.

**4. Çöl və kameral şəraitdə aparılmış ölçmə işlərinin nəticələrinin və toplanmış kadastr məlumatlarının keyfiyyətinə nəzarət mərhələsi**

4.1. Sərhəd xətlərində, onların həndəsi ölçülərində, topologiyasında, döngə nöqtələrində və onların koordinatlarında baş verə biləcək xətaların qarşısını almaq məqsədi ilə rəqəmsal kadastr xəritəsi tərtibi və bu xəritəyə məlumatların

*Ardı 3-cü səhifədə*

daxil edilməsi xüsusi proqram təminatı vasitəsilə yerinə yetirilən nəzarət işləri aparılmaqla həyata keçirilir.

**5. Sənədlərdəki məkan göstəriciləri ilə torpağın faktiki yerləşdiyi məkan göstəriciləri arasındakı uyğunsuzluqların müəyyənləşdirilməsi və aradan qaldırılması ilə bağlı ərazi vahidləri üzrə layihələrin işlənməsi mərhələsi**

5.1. Çöl və kameral şəraitdə aparılmış ölçmə işlərinin nəticəsində torpaqların faktiki (naturadakı) yerləşmə vəziyyətinə dair hər bir torpaq sahəsi barədə əldə edilmiş yeni kadastr göstəriciləri hüquqmüəyyənedici sənədlərdə əks olunmuş məlumatlarla və məkan göstəriciləri ilə müqayisə edilərək, uyğunsuzluqlar müəyyənləşdirilir və aradan qaldırılması ilə bağlı ərazi vahidləri üzrə layihələr tərtib olunur.

5.2. Ərazi vahidləri üzrə layihələrdə fiziki və hüquqi şəxslərin mülkiyyətindəki və qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi, kollektiv və kooperativ bağların yerləşdiyi torpaqlarda və torpaq islahatı zamanı verilmiş pay torpaqlarında hüquqi və texniki sənədlərdəki məkan göstəriciləri ilə torpaqların faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasında mövcud olan uyğunsuzluqlar (sərhəd, yerləşmə və konfiqurasiya fərqləri) göstərilir və bu uyğunsuzluqların Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 43-cü maddəsinə uyğun olaraq yerquruluşu qaydasında aradan qaldırılması ilə bağlı görülən tədbirlər barədə qeydlər öz əksini tapır.

5.3. Sistemə ərazi vahidləri üzrə layihələr əsasında torpaq sahələri barədə dürüstləşdirilmiş məlumatların daxil edilməsi təmin olunur.

**6. Sistemin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi mərhələsi**

6.1. Sistemə torpaqlara dair aşağıdakı məlumatlar daxil edilir:

6.1.1. Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının, ərazi vahidinin və inzibati ərazi dairəsinin, bələdiyyənin adı, onun ərazisinin sərhədləri və döngə nöqtələrinin koordinatları, ölçüsü, döngə nöqtələri və onların koordinatları göstərilməklə hər bir torpaq sahəsinin sərhədləri, kateqoriyası və məqsədli istifadə növü, mülkiyyət növü, torpaq sahəsi kənd təsərrüfatı yerlərinə (uqodiyalarına) – əkin, çoxillik əkmələrin altında olan torpaqlara, dincə qoyulmuş torpaqlara, biçənəklərə, örüşlərə və otlaqlara aid edildiyi hallarda isə, əlavə olaraq, onun keyfiyyət göstəricilərini xarakterizə edən məlumatlar, torpaq sahəsinə və onun üzərində yerləşən daşınmaz əmlaka (belə əmlak olduğu halda) verilmiş kadastr nömrəsi, daşınmaz əmlakın dövlət reyestrində üzərində hüquqlar qeydiyyata alınmış torpaq sahəsinin reyestr nömrəsi;

6.1.2. torpaq sahəsində yerləşən bina və qurğuların növü və yerləşdiyi yerin döngə nöqtələrinin koordinatları, mövcud mühəndis-kommunikasiya xətləri haqqında məlumatlar (kommunikasiya xəttinin tipi, kommunikasiya xəttinin döngə nöqtələrinin koordinatları, diametri, uzunluğu, elektrik xətlərinin gərginliyi, mühafizə, qorunma, sanitariya zona və zolaqları), su obyektləri, meliorasiya və suvarma sistemləri barədə məlumatlar, mövcud təbii relyef elementləri, habelə karxanalar, radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış ərazilər haqqında məlumatlar;

6.1.3. torpaqların münbitliyinin bərpası və artırılması ilə bağlı görülmüş tədbirlər, onların nəticələri, eləcə də torpaqların monitorinqinin nəticələri ilə bağlı məlumatlar.

6.2. Yerquruluşu, çöl tədqiqatı və çöl geodeziya ölçmə işlərinin yekunu olaraq naturada xəritə üzərində ərazinin sərhədləri daxilində mövcud olan bütün torpaq sahələrinin sərhədləndirilmiş son vəziyyəti müvafiq formatda hazırlanır.

6.3. Bütün məlumatların məlumat modelinin tələblərinə uyğun toplanmasına nəzarət olunur, uyğunsuzluqlar aradan qaldırılır, bundan əvvəl verilmədiyi hallarda hər bir torpaq sahəsinə və onun üzərində mövcud olan daşınmaz əmlak obyektlərinə kadastr nömrəsi verilir.

6.4. Çöl və kameral şəraitdə işlənmiş, ərazi vahidləri üzrə layihələr də daxil olmaqla, sadə aralıq bazada mövcud olan bütün məlumatlar xüsusi kodlar vasitəsilə ayrı-ayrı məlumat cədvəllərinin əlaqələndirilməsi yolu ilə müvafiq məlumat modelinə, fayl formatına çevrilir.

6.5. Yaradılmış məlumat bazası məlumatların idarə edilməsi, tematik rəqəmsal kadastr xəritələrinin istehsalı və sifarişçinin tələbinə uyğun olaraq lazımi hesabatların alınması məqsədi ilə məlumat sistemlərinə inteqrasiya edilə bilən olmalıdır.

6.6. Sistem daşınmaz əmlakın dövlət reyestrinə inteqrasiya olunur və torpaq sahələri üzərində qeydiyyata alınmış hüquqlara dair məlumatların sistemə inteqrasiyası təmin edilir.

---

*Yeni tədqiqatlar*

## Naxçıvan xanlığının ikirəngli bayrağı



Azərbaycanın dövlətçilik atributlarının öyrənilməsi və tədqiqi dövlətçilik tariximizin dərin köklərə malik olduğunu sübut edir. Bu istiqamətdə ölkəmizdə çox mühüm və əhəmiyyətli işlər görülmüşdür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 13 mart 1998-ci il tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının tədqiqi və təbliğinin gücləndirilməsi haqqında" Sərəncamında dövlətçilik atributlarının və tarixi ənənələrin dərindən araşdırılması və öyrənilməsi tələb olunurdu. Azərbaycan Prezidentinin 2007-ci ildə Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması və 2009-cu ildə Dövlət Bayrağı Gününün təsis edilməsi barədə sərəncamlarının məhz noyabrın 17-də imzalanması xüsusi əhəmiyyət kəsb edir. Xatırladaq ki, 1990-cı il 17 noyabr tarixində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli Azərbaycan bayrağı da Naxçıvan Muxtar Respublikasının dövlət rəmzi statusunu almışdır.

Prezident İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının 10-cu maddəsinin "Mədəni irsin qorunması və səmərəli idarə edilməsi" bəndində deyilir: *"...Dünya muzeylərində saxlanılan Azərbaycan mənşəli eksponatların tədqiqi və Azərbaycana məxsusluğunun sübutu üçün materialların toplanması da diqqət mərkəzində olacaqdır".*

Dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və təbliği istiqamətində görülən işlər sırasında ən mühüm yerlərdən biri azərbaycançılığın tarixi köklərə əsaslanaraq inkişaf etməsini bildirən dövlət atributlarının öyrənilməsi sahəsində aparılan elmi-tədqiqat işləridir.

Dövlətçilik tariximizdə mühüm yer tutan Şimali Azərbaycan xanlıqları ləğv edildikdən sonra onların bayraqları qənimət kimi Rusiya imperiyasının qüdrətini ifadə edən tarixi abidəyə çevrilmişdir. Qafqazdan gələn bayraqlar Sarskoselski saray arsenalına təhvil verilmişdi. 1906-cı ilin mart ayında bayraqların bir hissəsi – Cavad xanın standartı və Gəncə xanlığının bayraqları, Bakı xanlığının 1 bayrağı, Nuxa (Şəki) xanlığının 6 bayrağı, İrəvan uğrunda döyüşdə götürülən 2 bayraq, Lənkəran xanlığına hücum zamanı götürülən 2 bayraq Tiflisə Qafqaz Hərbi Tarix Muzeyinə (QHTM) göndərilmişdi. Rusiyaya döyüşsüz birləşən xanlıqların (Qarabağ, Naxçıvan, Şirvan və başqa) bayraqları isə QHTM-ə göndərilməmişdir.

Rusiya Federasiyasının bayraq fondları və arxivlərində tədqiqatlarımın nəticəsi olaraq Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb Tarixi Muzeyinin bayraq fondunda Azərbaycanın Naxçıvan xanlığına məxsus və bu günə kimi məlum olmayan sayca üçüncü bayrağı aşkar edildi.

Naxçıvan xanlığının sayca bu üçüncü bayrağı 1827-ci ildə xanlığın işğalı zaman general İ.Paskeviç tərəfindən qənimət kimi götürülmüş və muzeyin fondunda "XVIII-XIX əsrlər müsəlman bayrağı" kimi saxlanılır. Aşkar olunmuş Naxçıvan xanlığının üçüncü bayrağı düzbucaq formada, eni 92, uzunluğu 192 sm-dir. Bayraq bir-birinə üfüqi şəkildə tikilmiş solğun yaşıl və qırmızı parçalardan ibarətdir. Bayrağın yaşıl hissəsində simvolik günəş formasında qırmızı parçadan səkkizguşəli ulduz tikilib. Bayraq qumaşının çoxsaylı zədələrindən aydın olur ki, sözügedən atribut döyüşlərdə istifadə edilib. Onun üzərində zədələnmiş hissələr bərpa edilib tikilərək bir neçə yerdən yamanıb. Bayrağın üzərindəki ulduzun bir hissəsi zədəli olduğundan bərpa edildikdən sonra ulduz yeddiguşəli qalıb. Bayrağın sol tərəfində şaquli istiqamətdə bayraq torbacığı tikilib. Şam ağacından hazırlanmış bayraq ağacının dəmirdən düzəldilmiş nizəvari formada, ortasında içi boş kürəcik olan bayraq ucluğu taxılıb. Üzərindəki rənglər istifadə edən xalqın tarixi ənənələrini əks etdirir. Yaşıl rəngin çox mənaları var, islamçılıq yanaşı, bolluq, bərəkət, həyat sevgisi, inam, sevinc, ümid, azadlığı ifadə edir. Qırmızı rəngin isə müasirliklə yanaşı, digər mənaları olub: məhəbbət, yüksək məqsədlər, amallar, qəzəb, igidlik, cəsurluq, düşmənin axan qanını ifadə edib.

Naxçıvan xanlığının dövlət bayrağının üzərindəki səkkizguşəli ulduz və aypara kompozisiyasının əks edilməsi və xanlığın üçüncü bayrağının qırmızı və yaşıl rəngli olması, üzərində səkkizguşəli ulduz rəmzinin təsviri sübut edir ki, Azərbaycan Respublikasının Dövlət Bayrağındakı rəmzlər və rənglər, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətindən də əvvəl Azərbaycanın tarixi bayraqlarında milli rəmz kimi istifadə edilib və azərbaycançılığı, milli məfkurəni, dövlətçilik ənənələrini əks etdirən mühüm amil olub. Azərbaycan xanlıqlarının bayraqlarını müqayisə edərkən üzərlərindəki yazıların və rəmzlərin təhlili nəticəsində müəyyən olunub ki, Naxçıvan xanlığının bayraqlarından başqa heç bir xanlığın bayrağının üzərində xanlıqlara mənsubluğunu bildirən rəmz istifadə olunmayıb. Səkkizguşəli ulduz Azərbaycan ərazisində qədim dövrlərdən istifadə edilmiş və müqəddəs hesab olunmuşdur. Azərbaycanda qədim zamanlardan ulduz əbədilik rəmzi kimi istifadə edilib. Daha erkən dövrdə isə bu, yüksək məqsədlər və arzular rəmzi idi. Ulduz istiqamət və xoşbəxtlik emblemidir. Bunların üzərindəki rəmz və emblemlər ya keçmişi, yaxud da xalqın işıqlı gələcəyə, yüksək məqsədlərə ünvanlanan meylini bildirir. Bütün hallarda hər bir bayraq ulduzların, xətlərin və başqa simvolların dili ilə öz xalqının müqəddəratını bildirir. Aşkar edilmiş Naxçıvan xanlığının üç bayrağı özündə xanlığın siyasi-ideoloji və dini dəyərlərini əks etdirir.

Naxçıvan xanlığının üç bayrağının tərtibatı, üzərində əks edilən yazılar, istifadə olunan rəmzlər və rənglər bayrağa sahib olan Naxçıvan xanlığının siyasi, ideoloji, dini və tarixi mədəni ənənələrini əks etdirir.

Bu bayraqların elmi tədqiqatının nəticəsi göstərir ki, onlar dövlətçilik ənənələrinə və tarixi rəmzlərə əsaslanaraq tərtib edilmişdir. Belə ki, Naxçıvan xanlığı ideoloji baxımdan möhkəm, tarixi ənənələrə, köklərə bağlı dövlət qurumu kimi fəaliyyət göstərib. Dövlət bayraqlarımızın öyrənilməsi və nəticələrinin təbliği göstərir ki, Azərbaycan böyük dövlətçilik ənənələrinə malik olmuşdur.

Gələcəkdə bu istiqamətdə elmi tədqiqatların aparılması zəruridir. Fikrimizcə, Azərbaycanın tarixi bayraqlarının axtarılması və elmi tədqiqatların nəticələri barədə ictimaiyyətə mütəmadi olaraq məlumat verilməlidir. Bu sahədə araşdırmaların nəticələri vətəndaşlar, xüsusən gənclər arasında vətənpərvərlik hissinin güclənməsinə, ölkəmiz haqqında doğru olmayan məlumatlar yayanlara qarşı mübarizəyə və Azərbaycanın qədim dövlətçilik ənənələrinin təbliğinə xidmət edəcək.

**Pərvin GÖZƏLOV**
***tarix üzrə fəlsəfə doktoru, bayraqşünaslıq və heraldika üzrə mütəxəssis,***
***"Azərbaycan" qəzeti, 2 aprel 2016-cı il***

---

## Fiziki imkanları məhdud olan gənclərin əl işlərindən ibarət sərgi açılıb

***Aprelin 4-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda "Oğuz yurdu" adlı rəsm sərgisi açılıb.***

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və ölkəmizin paytaxtında fəaliyyət göstərən Əlil və Gənc Rəssamlar Birliyinin təşkilatçılığı ilə təşkil olunan sərgidə fiziki imkanları məhdud gənclərin əl işlərindən ibarət 56 əsər nümayiş etdirilir. Bu əsərlərdən 31-i muxtar respublikada, 25-i isə ölkəmizin digər regionlarında yaşayan gənclərə məxsusdur.

Bununla bağlı keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva açıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikamızda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar təhsil infrastrukturunun yenilənməsi, kadr potensialının təkmilləşdirilməsi və hər bir təhsil alan şəxsin layiqli vətəndaş kimi cəmiyyətə inteqrasiyası üçün əlverişli şərait yaradır. Bu istiqamətdə həyata keçirilən tədbirlər sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunmasında mühüm əhəmiyyət daşıyır.

Qeyd olunub ki, "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası nəticəsində bu kateqoriyadan olanların təhsilə cəlbi sistemli xarakter alıb, inklüziv təhsil üçün əsaslı zəmin hazırlanıb. Proqramın icrası zamanı sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülüb. Bunun nəticəsidir ki, sağlamlıq imkanları məhdud uşaqlar məktəbəqədər tərbiyə müəssisələrinə, ümumtəhsil müəssisələrinə, musiqi məktəblərinə, məktəbdənkənar təhsil müəssisələrinə və idman qruplarına cəlb edilir. Hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar da diqqətdə saxlanılıb, onların təhsilə cəlbi məqsədilə Distant Tədris Mərkəzi, audio və elektron kitabxana xidmətləri yaradılıb. Bununla yanaşı, görmə qabiliyyəti məhdud şəxslərə brayl kurslar təşkil edilir. Nitq problemləri olan uşaqlar üçün defektoloji bölmə fəaliyyət göstərir.

Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası istiqamətində yeni mərhələnin təməli qoyulub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" isə məhdud fiziki imkanlı uşaqların sosial reabilitasiyası sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Bu gün Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda "Oğuz yurdu" adlı rəsm sərgisinin təşkil edilməsi də bu proqram çərçivəsində icra edilir. Sağlamlıq imkanları məhdud uşaq və gənclərin əl işlərindən ibarət bu cür sərgilərin təşkili bu kateqoriyadan olanların cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır.

Əlil və Gənc Rəssamlar Birliyinin sədri Şəmsəddin Böyükdüzlü sərginin təşkili üçün yaradılmış şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev belə tədbirlərin keçirilməsinin fiziki imkanları məhdud gənclərin cəmiyyətə inteqrasiyasında böyük rol oynadığını deyib.

Sonra sərgidə iştirak edən gənc rəssamlara Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin diplomları təqdim edilib və sərgiyə baxış olub.

Qeyd edək ki, üç gün davam edəcək "Oğuz yurdu" adlı sərgidə ölkəmizin tarixinə və təbiətinə həsr olunmuş yağlı və sulu boya ilə çəkilmiş rəsmlər, toxuma əl işləri və ağac üzərində oyma nümunələri nümayiş etdirilir.

**Səbuhi HƏSƏNOV**

***Ötən şənbə, səhər saat 9[00]-da Naxçıvan şəhərindən olan, sınaq imtahanlarında yüksək nəticələr göstərən və aztəminatlı ailələrin uşaqlarından ibarət bir qrup məktəbli Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzinə birgünlük istirahətə yollandı. Bu layihə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, muxtar respublika Təhsil, Gənclər və İdman nazirlikləri, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən həyata keçirilir.***

# Hər həftəsonu məktəblilərin mənalı istirahəti təşkil olunacaq

## *Ağbulaq İstirahət Mərkəzindən reportaj*





Onlar üçün ayrılan iki avtobusla yola düşən məktəblilər yolların rahat olması səbəbindən qısa zamanda mənzil başına çatdılar. Burada onları mərkəzin əməkdaşları qarşıladı. Məktəblilər əşyalarını yerləşdirdikdən sonra mərkəzlə tanış oldular.

Tanışlıqdan sonra istirahət mərkəzinin mini-futbol meydançasında komandaların yarışı başlandı, məktəblilərin futbol idman növünə böyük maraq göstərməsi elə bu yarışlar zamanı ortaya çıxdı. Belə ki, komandalar qalib gəlmək üçün varqüvvələrini nümayiş etdirdilər. Yarışlar nahar fasiləsindən sonra da davam etdi. Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin müəllimi Zəhra İsmayılovanın rəhbərliyi ilə məktəblilər şahmat və dama yarışlarına qatıldılar. Gərgin mübarizə şəraitində keçən qarşılaşmalar tamaşaçı məktəblilər tərəfindən maraqla qarşılandı. Şam yeməyindən sonra isə mərkəzin istirahət otağında vətənpərvərlik mövzusunda çəkilmiş " Dolu" filmi nümayiş etdirildi. Filmin nümayişindən sonra Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Ayşən Əsgərova məktəblilərlə söhbətlər apararaq filmdən çıxarılan nəticələr barədə sorğu keçirdi. Sorğu nəticəsində məlum oldu ki, məktəblilərin əksəriyyəti böyüyəndə filmin qəhrəmanları kimi olmaq, vətən uğrunda fədakarlıqlar göstərmək istəyir, onlar kimi müqəddəs vətən torpaqlarının hər qarışı uğrunda mübarizə aparmağa can atır. Axşam uşaqlar geniş və işıqlı, hər cür şəraitə malik otaqlarına istirahətə çəkildilər. Qaranlıq öz pərdəsini gözəl mənzərəli Ağbulaq kəndinin üzərinə çəkdiyində məktəblilər sabah keçirəcəkləri günün həyəcanı ilə şirin yuxuya getmişdilər. Günəş dağların ardından boylananda isə uşaqlar yavaş-yavaş idman meydançasına toplaşmağa başladılar. Burada səhər gimnastikası ilə məşğul olan uşaqları bir-birindən ləziz səhər yeməkləri gözləyirdi.

Səhər yeməyi başa çatdıqdan sonra uşaqlar üçün əyləncəli oyun və viktorinalar, şeir və rəsm müsabiqələri təşkil edilmişdi. Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin müəllimi Türkan Qocayeva uşaqları qaydalar barədə məlumatlandırdıqdan sonra əyləncəli oyunlara və tarix fənnindən viktorinaya start verildi. Viktorinada uşaqların fəal iştirakı bir daha onu göstərdi ki, burada istirahət edənlərin əksəriyyəti hərtərəfli biliyə, intellektə, dünyagörüşünə malik şagirdlərdir. Sonrakı müddətdə uşaqlar mütaliə ilə məşğul oldular, mütaliə olunan kitabları müzakirə etdilər. Uşaqlar M.Servantesin "Lamançlı Don Kixot"unu, C.Sviftin "Qulliverin səyahəti"ni, J.Vernin və F.Kuperin romanlarını, eləcə də Azərbaycan uşaq ədəbiyyatı nümunələrini böyük həvəslə mütaliə etdilər. Görkəmli sənətkar və yazıçıların əsərlərinin mütaliədən sonrakı müzakirəsi uşaqların aktiv iştirakı ilə yadda qaldı. Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Nihad Cəfərov dedi ki, dərslərin çox olması səbəbindən mütaliəyə o qədər də vaxt ayıra bilməyib. Ancaq burada onların mütaliəsi üçün yaxşı şərait yaradılıb. Çalışacaq ki, bundan sonra evdə də mütaliəni davam etdirsin.

İstirahət mərkəzinin idman sahəsində keçirilən voleybol və badminton idman növü üzrə qarşılaşmalar da maraqlı səhnələrlə yadda qaldı. Məktəblilər bu idman növlərinə də böyük maraq göstərdiklərini elə ilk görüşlərdən nümayiş etdirdilər. Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin şagirdlərindən Dilara Abdullayeva, İlham Zeynalov və başqaları bu görüşlərdə xüsusilə fərqləndilər. Görüşlərdən sonra məktəblilərin Ağbulaq İstirahət Mərkəzinə səfərinin başa çatdığı elan edildi, onlar Naxçıvan şəhərinə yola düşdülər.



Naxçıvan şəhərində məktəbliləri qarşılayanlar da az deyildi. Təşkilatçı qurumların nümayəndələri, valideynlər və ailə üzvləri, məktəblilərin dostları və rəfiqələri də qarşılayanlar arasında idi. Valideynlərdən Lətif Hüseynov, Kamran Abdullayev və Sahib Zeynalov övladlarını qarşıladıqdan sonra təəssüratlarını bizimlə bölüşdülər. Bildirdilər ki, övladlarına birgünlük istirahətdən sonra böyük sevinc, ruh yüksəkliyi hiss ediblər. Sözsüz ki, orada keçirilən müxtəlif müsabiqələr bundan sonra da uşaqların qabiliyyət və yaradıcılıq potensiallarının inkişafına müsbət təsir göstərəcək, onları daha yaxşı oxumağa həvəsləndirəcək. Uşaqların əhval-ruhiyyəsindən də yaxşı görünür ki, onların Ağbulağa göndərilmələri yaxşı istirahət etmələri ilə bərabər, fiziki fəaliyyət ehtiyaclarını ödəmələrinə, yaradıcılıqlarını inkişaf etdirmələrinə səbəb olub. Uşaqlar bu şəraitin yaradılmasına görə dövlətimizə minnətdardırlar.

Beləcə məktəblilərin Ağbulaq İstirahət Mərkəzinə səfəri başa çatdı.

Qeyd edək ki, tədbir bu il mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən keçirilir. Aprelin 2-də startı verilən layihə çərçivəsində, ümumilikdə, 405 şagirdin Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil ediləcək. Layihə hər həftənin şənbə və bazar günlərində olmaqla, 2 aprel-5 iyun tarixlərində reallaşdırılacaq.

✍ **Səbuhi HÜSEYNOV**

# Heydər Əliyev adına Hərbi Liseyə

## *2016/2017-ci tədris ilində namizəd qəbulu qaydaları*

**Ümumi müddəalar:**

*Təlim dili: Azərbaycan dili*

*Təhsil forması: Əyani*

*Təhsil müddəti: 3 il*

Yaş həddi: Cari ildə ümumtəhsil müəssisələrinin 8-ci sinfini bitirmiş (9-cu sinfi bitirənlər istisna olmaqla), 15 sentyabr 2016-cı ilə qədər 14 yaşı tamam olan və 16 yaşı keçməyən oğlanlar qəbul edilirlər.

Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmaq istəyən namizədlər 01.04.2016-cı il tarixdən 10 may 2016-cı il tarixədək hərbi lisey rəisinin adına ərizə ilə müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:**

1. Şəxsən yazılmış tərcümeyi-hal – 1 nüsxə, çap edilmiş – 2 nüsxə
2. Oxuduğu sinfin 1-ci yarımilinin qiymət cədvəli
3. Doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin surəti (notarius tərəfindən təsdiq olunmuş)
4. Sinif rəhbəri tərəfindən yazılmış və məktəb direktoru tərəfindən təsdiq edilmiş xasiyyətnamə
5. Evlər idarəsindən və ya müvafiq icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış
6. 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) – 2 ədəd 3x4sm ölçüdə və 2 ədəd 4,5x6sm ölçüdə
7. Valideynlərin və ya onları əvəz edən şəxslərin dövlət notariusunda təsdiq olunmuş razılıq ərizələri
8. Burunətrafı boşluqların rentgenoqrafiyası
9. Sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ
10. Qanın ümumi analizi, qan qrupu və rezus-faktor
11. Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri
12. Qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri
13. Dizenteriya qrupuna aid müayinə, əsnəkdən və burundan difteriya çöplərinin aşkar edilməsi üçün müayinə
14. Psixonevroloji, narkoloji, vərəm və dərizöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar
15. Xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olub-olmaması barədə məlumatlar
16. Ambulator xəstənin tibbi kartı (keçirilmiş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibbi kartından çıxarışlar (forma № 27/U), rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibbi kartası – forma № 26/U).

Doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin əsli namizəd tərəfindən şəxsən təqdim olunur.

**Hərbi liseyə qəbul 2 mərhələdə keçirilir:**

***1-ci mərhələdə*** qəbul olmaq istəyən namizədlər Heydər Əliyev adına Hərbi Liseydə hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu vaxtı bildiriləcəkdir. Liseyə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır (buraxılış vərəqəsi veriləcək).

***2-ci mərhələdə*** namizədlər Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müvafiq ixtisas qrupu üzrə test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanları aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır (ümumtəhsil müəssisələrinin 8-ci sinfi həcmində):

**Azərbaycan dili, riyaziyyat, fizika, kimya.**

Heydər Əliyev adına Hərbi Liseyə namizədlərin qəbulu Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından təqdim olunmuş test imtahanlarının nəticələri haqqında siyahılar əsasında lisey rəisinin əmri ilə həyata keçirilir. İmtahanın tarixi əlavə olaraq bildiriləcək.

Naxçıvan Muxtar Respublikasında yaşayan xüsusi təyinatlı təhsil müəssisələrinə, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə və Hərbi Tibb Məktəbinə qəbul olmaq arzusunda olan namizədlər Heydər Əliyev adına Hərbi Liseyə müraciət etməlidirlər.

***Əlaqə telefonları: 544-00-15, 544-00-16, 544-00-17***

# Rezidenturaya qəbul imtahanı keçirilib



*Aprel ayının 3-də Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ali məktəblərin rezidenturalarına qəbul imtahanının birinci mərhələsini keçirib.*

Naxçıvan Muxtar Respublikasında Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin binasında keçirilən imtahan saat 11[00]-də başlayıb və 2 saat 30 dəqiqə davam edib. Namizədlərə 100 test tapşırığı təqdim olunub. Namizədin hər bir test tapşırığına düzgün cavabı bir balla qiymətləndirilir. Səhv cavablar namizədin imtahan nəticəsinə təsir göstərmir.

İkinci mərhələyə imtahanın birinci mərhələsində topladığı bal 40-dan az olmayan namizədlər buraxılacaqlar. Müsabiqəyə imtahanda topladığı balı baza fənləri üzrə 40-dan, ixtisas fənləri üzrə isə 50-dən az olmayan namizədlər buraxılır.

* * *

Həmin gün Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ali təhsil müəssisələrinə hazırlaşan abituriyentlər üçün sınaq imtahanı keçirib. Muxtar respublikanın bütün rayonlarında keçirilən imtahan saat 11[00]-də başlayıb və 3 saat vaxt ayrılıb.

Sınaq imtahanları abituriyentlərin qəbul imtahanına hazırlaşmasında, onlarda imtahan vərdişlərinin formalaşmasında və bilik səviyyələrinin real qiymətləndirilməsində mühüm rol oynayır. Qeyd edək ki, sınaq imtahanlarında əldə edilən nəticələr qəbul imtahanlarının nəticələri hesablanarkən nəzərə alınmır və heç bir hüquqi əhəmiyyətə malik deyil.

Növbəti sınaq imtahanları aprel ayının 10 və 24-ü, may ayının 5-də keçiriləcək.

**Xəbərlər şöbəsi**

# Yoldaşlıq görüşündə *"Şərur"* komandası qalib gəlib

***Şərur Rayon Uşaq-gənclər idman məktəbinin boks zalında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında "Naxçıvan" və "Şərur" komandaları arasında kikboksinq üzrə yoldaşlıq görüşü keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Şərq Döyüşü Sənəti Federasiyası, Şərur Rayon və Naxçıvan Şəhər Gənclər və İdman idarələrinin birgə təşkilatçılığı ilə keçirilən yarışdan əvvəl idmançılar Şərur rayonundakı Tarix-Diyarşünaslıq Muzeyində olublar.

Şərur Rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev çıxış edərək idmançılara yarışın keçirilmə məqsədi haqqında geniş məlumat veriblər.

Yoldaşlıq görüşündə 15 çəki dərəcəsində 80 idmançı öz gücünü sınayıb. 8:7 hesabı ilə "Şərur" komandasının qalib gəldiyi yarışda hər iki komandaya təşkilatçıların diplom və kubokları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

***Bildiriş***

"Gülüstan" kəndli-fermer təsərrüfatının (VÖEN – 0700110591) hüquqi adı və təşkilati hüquqi forması dəyişilərək "Gülüstan-EM" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

* * *

"Soltech" Naxçıvan Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.


ŞƏRQ qapısı

**Baş redaktor:** TURAL SƏFƏROV

***Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.***

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 260**